# Quduzluq

*(hidrofobiya – sudan qorxma) mərkəzi əsəb sistemini zədələyən virus etiologiyalı kəskin yoluxucu xəstəlikdir.*

Xəstəlik insana xəstə və virus daşıyan heyvanın dişləməsi və ya zədə yerindən onun tüpürcəyi vasitəsi ilə keçir. Virusun insanlardan insana keçməsi də istisna edilmir.

Xəstəlik bir qayda olaraq ölümlə nəticələnir.

Hal-hazırda quduzluq dünyanın bütün qitələrində qeydə alınır. Quduzluğa bütün istiqanlı heyvanlar həssasdırlar, lakin bir neçə növ yırtıcı, xüsusi ilə it ailəsinə aid olan heyvanlar xəstəlikdə əsas infeksiya mənbəyi kimi mühüm epidemioloji əhəmiyyətə malikdirlər (canavar, tülkü, caqqal və s.)

Virus xarici mühitə infeksiyalaşmış heyvanın və ya insanın ağız suyu ilə inkubasion dövrün sonuncu 7-10 günü ərzində və bütün xəstəlik dövründə ifraz olunur. Xəstəliyin gizli (inkubasiya) dövrü 12 gündən 30 günə qədər, nadir hallarda isə 1 ilə qədər və daha çox davam edə bilər.

Quduzluq virusu təbiətdə vəhşi yırtıcı heyvanların (canavar, çaqqal, tülkü və s.) orqanizmində saxlanılır. Bununla belə insanların quduzluqla xəstələnməsi yaşayış yerlərində sahibsiz itlərin, xüsusən onların arasında quduz olmuş heyvanların sayının artdığı zaman qeyd edilir. Müəyyən edilmişdir ki, xəstəliyin heyvan dişləməsi nəticəsində baş verməsi, quduzluqla ümumi xəstələnmənin 90%-ni təşkil edir, bunun isə 80-89%-i itlərin dişləməsi ilə əlaqədardır. Qeyd etmək lazımdır ki, heyvanların tüpürcəyində viruslar xəstəliyin ilk əlamətlərindən 7-13 gün qabaq qeyd edilir. İnfeksiya mənbəyi kimi pişiklər də çox təhlükəlidirlər. Onlarda quduzluq gizli formada keçir. Ot yeyən heyvanlardan da (buynuzlu heyvanlar, atlar, eşşəklər, dəvələr, marallar və s.) yoluxma baş verə bilər. Siçovul, siçan və başqa vəhşi sinantrop heyvanlardan da quduzluqla yoluxmanın baş

verməsi mümkündür. Quduzluqla xəstələnmiş insandan yoluxma çox nadir hallarda qeyd edilir.

Quduzluq xəstəliyinə tutulmağın qarşısını almaq üçün əlimizdə qüdrətli bir vasitə vardır ki, bu da quduzluğa qarşı peyvənd etməkdir. Bu peyvəndlər nə qədər tez edilərsə, onların təsiri bir o qədər müsbət olar. Peyvəndləri özbaşına dayandırmaq və ya bunların arasında fasilə vermək olmaz, çünki bu bədəndə quduzluğa qarşı müqavimət əmələ gəlməsini zəiflədir.

Hansısa bir heyvan tərəfindən dişlənmiş, cırmaqlanmış, tüpürcəklənmiş və həmçinin quduzluq xəstəliyindən ölmüş heyvanların cəsədlərinin yarılması, cəmdəklərinin emalı və quduzluq xəstəliyindən ölmüş insanların meyitlərinin yarılması zamanı xəsarət almış şəxslər dərhal (həmin gün) tibbi yardım üçün müalicə profilaktika müəssisələrinə müraciət etməlidirlər.

**Vaxtında və tam peyvənd edilməklə özünüzü quduzluq xəstəliyindən xilas etmiş olarsınız!**

Səhiyyə Nazirliyi
Respublika Gigiyena və Epidemiologiya Mərkəzi
Sosial Gigiyena Monitorinqi şöbəsi
Tel: 422 08 23

Özünüzü və Yaxınlarınızı Quduzluqla

# Xəstələnməkdən Qoruyun!!!



# Quduzluq